***Sizə fondumuzun fəaliyyəti haqqında bilgiləri göndəririk. İlgiləndiyiniz üçün öncədən təşəkkürümü bildirirəm.***

**Alikram Muzaffer**

***Minlərlə adamdan ola bilsin ki, yalnız biri kamilliyə can atır və kamilliyə çatanlardan, bəlkə də biri həqiqəti dərk edir. Rəngarəngliyin harmoniyası, müxtəlifliyin eyniliyi bar ədəbiliyi olmayanın əsl biliyi yoxdur. Belə biliyi olmayanın fərqlərdən danışmağa ixtiyarı yoxdur.***

**Müxtəlif.**

**İnancların, ənənələrin, millətlərin nümayəndələrinin öz qarşılıqlı münasibətlərində onlarda olan oxşarlıqları özül olaraq götürərlərsə, bu zaman onlar fərqlərdən mənəvi qida alar və həzz içində yaşayarlar. İnsanlar isə fərqləri əsas götürdüklərinə görə Tək Bir O-nu anmaqdansa, onların vaxtı münaqişə etməkdə keçir.**

TƏK BİR O ...inananlara QƏLƏBƏ vəd edib. Özünü TƏK BİR O-na təslim etmək - artıq QƏLƏBƏDİR! Bəzən, qəlbsiz və kobud olduqları halda, ...yaxınlarına, dostlarına, qarşılıqlı cavab almadan, yaxşılıq edirsən;

...əgər səni alçaltmağa çalışır, sənin yaxşı fikirlərini pis tərəfə yozurlarsa,

...əgər sən hər kəs tərəfindən unudulmusansa;

...əgər sən bir yaxşılıq edirsən və ya etməyə çalışırsan,

...lakin sənin fikirlərinə rişxəndlə yanaşırlarsa;

...əgər zövq və arzularına qarşı çıxırlarsa,

...məsləhətlərinə nifrətlə, kinayə ilə baxırlarsa;

...əgər sən - öz həyat şəraitindən razısansa, ... yeməyinə, geyiminə, maddi durumuna, cəmiyyətdəki mövqeyinə;

Qəlbini TƏK BİR O-nun əbədi həqiqətinə bağla. Sevgidə qorxu yoxdur. Kamil sevgi qorxunu qovur. Qorxuda əzab var, qorxan sevgi də kamil deyil.

İnsan yeganə məxluqdur ki, mələklərdən üstün ola bilir.

Hər kəsin qiyməti, - sevdiyinin qiymətinin dəyəri ilə ölçülür.

Sizə TƏK BİR O-nu sevməyi ve mələklərdən üstün olmağı arzulayıram!

1000 illərlədir TƏK BİR O-nun adına görə, O-na ibadət şəklinə görə, hər kəs istəyir ki, - O-nu ...özü çağırdığı ad ilə, O-na ...özü istədiyi şəkildə ibadət etsin, inananlar və inanmayanlar arasında bunun üstündə mübahisələr, münaqişələr, hətta terror qarşıdurması və müharibələr gedir. Bu arada dırnaqarası siyasətçilər də, öz imperiyalarını genişləndirmək istəyənlər də, bunlardan çox məharətlə istifadə edib yararlana bilmişlər.

TƏK BİR O-nu sevən, O-nun yolu ile gedən ...bütün insanlar - gözəl insanlardır. Onların qurtuluşa ərmələri üçün isə, sadəcə siyasətbazlardan uzaq durmaları yetər.

Altun çağın sülhsevər liderləri, Qalib sultanlar, yəni öz nəfsləri üzərində qələbə çalanlar, TƏK BİR O-nun izni ilə ...2035-ci ilə qədər sərhədsiz dünya qurmaq əzmində olduqlarını bəyan edirlər!

Onların şüarı budur:

BİRLƏŞDİRİR BİZİ MÜZƏFFƏR İMAN,
MİLLƏTİMİZ İNSAN -YURDUMUZ CAHAN!
QƏDİM ZAMANLARDA SƏRHƏDSİZ İMİŞ,
SƏRHƏDSİZ OLACAQ, YENƏ BU DÜNYA!...
KƏSSƏ HƏR KƏS TÖKÜLƏN QAN İZİNİ,
QURTARAN DAHİ ODUR YER ÜZÜNÜ!

Ey bütün dünyanin dahiləri! ...Böyük din adamları! ...TƏK BİR O-nu sevənlər! TƏK BİR O-nun yolunun qalib gəlməsi üçün uşaqlarımızın, gələcəkdə doğulacaq məsum körpələrin xoşbəxt-firavan, terrorsuz-müharibəsiz yaşaması naminə birgə əməkdaşlıq edək!

Şöhrət arxasınca qaçma!

Halal ye! Hər kəsə şəfqət və mərhəmət et!

Heç kim ilə münaqişə, mücadilə etmə!

Dünyaya az meyl edən - hürr olar, azad yaşayar!

Nəfsinin arzularına, istəklərinə əsir olan - heç vəch ilə TƏK BİR O-nun yoluna, millətinə, vətəninə faydalı olmaz.

Məşhur RUHNAMƏ əsərində nazir vəzifəsinədək yüksələn bir məmur 2 oğlunu, ...özü uşaqlıqda çox ağır günlər keçirdiyinə görə, necə ərköyün böyütdüyünü və sonradan bunun ona necə baha başa gəldiyini anladır. Mənəvi hisslərdən zövq almayanlar - öd kisəsi xəstə olanlar kimidir, halvanı ...acı zənn edərlər. Bəzi insanlar zəngin, vəzifəli bir qohumu, dostu olanda, qərəz üzündən başqaları ilə tanış etməyirlər.

Mən dünyanın harasında oluramsa olum imkanlı, vəzifəli, zəngin dostumu, qohumumu hər zaman, bu sonradan ...mənim əleyhimə olacağını hətta bildiyim halda, başqaları ilə tanış etməyə can atmışam.



*Əlikram MÜZƏFFƏR*

# QƏLƏBƏ

...hətta TƏK BİR O-nun tərəfindən ərsəyə gətirilmiş və səni əhatə edən hər hansı bir eybəcər cəmiyyətin özü ilə belə razısansa;

...əgər başqalarından özünə qarşı gördüyün ədalətsizliyə, insanların pis xasiyyətlərinə, və bütün çatışmamazlıqlara... qəzəblənmədən ...dözə bilirsənsə;

...əgər sənin haqqında süni şəkildə yanlış rəy yaradılmasına, hər cür təqiblərə, məntiqsizliklərə - bütün bunları mətanətlə qəbul edib, dözə bilirsənsə;

...əgər ...hər zaman kölgədə qalmağı bacarır, ...güclü bir adamın "xeyir-duasını" axtarmayırsansa;

...böhtandan qəlbin ağrıyır, lakin bununla barışaraq, həmin insanların islah olunmaları barəsində dua edirsənsə;

...əgər sənin yolun çətindirsə, uğursuzluqlar və bəlalar səni izləyirlərsə, və belə bir qəmli halında da təleyinlə razısansa;

... dost adını üstlənən, lakin bunun ağırlığına qatlaşa bilməyən, yaxının sənə qarşı -ədalətsizdirsə

... Sən isə bütün bunları ...səbr və sevgi ilə qəbul edirsənsə, ...sənə qüssə və pərişanlıq gətirən şəxslərlə barışaraq ...TƏK BİR O-na şükr edib, onlara dua edirsənsə - BU BÖYÜK QƏLƏBƏDİR !

Əgər bu xasiyyətlərinlə qısa dünya həyatını başa vurub ...TƏK BİR O sevgilinə qovuşursansa - bax, bu TAM və QƏTİ QƏLƏBƏDİR!

Bu, TƏK BİR O-nun dostlarının və sözsüz ki, Peyğəmbərlərin əxlaqıdır!

Belə insanlar - Qalib Sultanlar adlanırlar! TƏK BİR O, bizi -70 il zahidlik etdikdən sonra, imansız olaraq dünyasını dəyişən insanın durumuna düşməkdən qorusun... AMİN!

TƏK BİR O - mərhəmətlidir və yalnız O istədiyi insana həqiqi güc verər! Sən - Qalibsən!

TƏK BİR O ...sənə hər nəyi veribsə - onu qoru, qoruya bilməsən - geriyə yol yoxdur! ...keçmiş günləri geriyə qaytara bilməzsən,

Həyat - mübarizədir, kecmişi unut, irəliyə bax...

...əgər sənin qardaşın-dostun gözəl söz deyirsə - TƏK BİR O-nun doğru istiqamətini göstərirsə ona yardım elə, edə bilmirsənsə mane olma;

Mərhəmətli olun ki, - TƏK BİR O da sizə mərhəmətli olsun! Səbr et, qalan ömrünü tələsdirmə. O səni sevir. O səni qoruyacaq!

Səbr edənlər, şükr edənlər QALİBDİR. İnan! Umud et! Səbr et!

TƏK BİR O-nun yolunun yolçularının bir amal uğrunda çalışdıqlarını görən inanmayanlar da ...mənəviyyatın maddiyata qalib gəlməsi üçün təqdim edilmiş "Müzəffər formulu" ilə TƏK BİR O-nun izniylə - inşaAllah sülhə gələrlər, AMİN!

Gəlin bir yerdə Qalib Sultanlara dəstək olaq! Gərçi bu iş sizin üçün çətin gələ bilərsə, heç olmasa dəstək verənlərə mane olmayın!

Zatən indi internet əsridir. Uşaqlar özləri hər şeyi bizdən tez qavrayırlar.

TƏK BİR O istəyirsə, bu O-nun üçün çox asandır "Ol" deyəcək - olacaq! İnşaAllah! AMİN!

TƏK BİR O-nun dediyi olur!

TƏK BİR O-ndan gəlib - O-na dönəcəyik, inşaAllah! AMİN!

Gəlin bir yerdə deyək: TƏK BİR O! - yoxdur O-ndan başqası!

Parolumuz da bu olsun: "TƏK BİR O!"

Bəziləri bir yazı yazanda deyirlər: "(Müəlliflik) haqqı mənimdir".

Mənsə deyirəm, ...kim bunları bəyənirsə, ...yazdıqlarım kimin qəlbindən xəbər verirsə, ...həqiqətən də əsər onundur(!) və nə qədər bacarırsa öz adından dünyada təbliğ etmək haqqına malikdir.

Hər bir insanda incə, zərif duyğular var. Bu duyğuları şeirə çevirənə - şair, musiqiyə çevirənə - bəstəkar, rəsm əsərinə çevirənə - rəssam deyirlər.

Bir sözlə - yaradıcı insanlar!

Bu fikirləri gözəl əsərlərə çevirmək üçün, TƏK BİR O-ndan sizə yaradıcılıq ilhamı bəxş etməsini təmənni edirəm! AMİN!

TƏK BİR O-nun ...bir kimsəni ...sənin vasitənlə hidayətə ərdirməsi - sənin üçün günəşin sənin üzərinə doğduğu və batdığından da daha xeyirlidir! Siz bu cür işlərdə kimə isə vəsilə olursanız nə mutlu sizlərə! Peyğəmbərlərin hamısı - insanları TƏK BİR O-nun yoluna dəvət ediblər. TƏK BİR O-nun əmrlərindən birinin həyata keçməsinə səbəb olmaq - milyardlarla xeyir etməkdən daha qiymətlidir!

Çünki, TƏK BİR O-nun əmrlərini yaymağa çalışmaqda - peyğəmbərlərin vəzifəsində onlara ortaq olmaq kimi uca şərəf var!

Din donuna bürünmüş cahillərindən qorunun!

Aslanlardan qaçan kimi cahillərdən qaç!

TƏK BİR O-nu ...bu cür şövqlə təbliğ etməmin də səbəbi elə budur! Düşünürəm ki, qoy O-nu hər kəs tanısın-sevsin. O-nun DOSTLARI çoxalsın...

İnsanlıq TƏK BİR O-nun vasitəsi ilə qurtuluşa yetişə bilər.

Həyatın ən çox faydalı keçən saatları - ibadətlə keçən saatlardır. Faydasız və fani şeylər uğrunda çox vaxtlarını sərf edənlər "ibadətə vaxtım yoxdur" deyirlər. İBADƏT, üzüntülü ruhlara ləzzət verir, xəstələrə rahatlıq verir. RUHUN QİDASIDIR. QƏLBIN ŞƏFASIDIR.

Müdrik aşiq Bəyazid Bistaminin zamanında TƏK BİR O(!) ...bütün insanların halını düşünüb ağladığına xatir, zamanın qütbü olmaq şərəfini, özü də bilmədiyi halda, - oxuma-yazma bilməyən bir dəmirçiyə ehsan etmişdi! ...həmin dövrdə 70 min alim, kəramət sahibi olduğu halda!

Bu, dəmirçinin xasiyyəti idi. Mənim də xasiyyətim - budur!

İnsanlar arasında birlik və sülh, fikirlərində, əməllərində birlik yaratmağı, qəlblərində sevgini artırmağı TƏK BİR O-ndan birlikdə istəyək! AMİN!

Bu hərəkatın AZƏRBAYCANdan çıxması da təsadüfi deyildir. Mən də AZƏRBAYCAN sevdalısıyam! Adında "CAN - RUH" sözü olan yeganə ölkə - AZƏRBAYCANdır!

"AZƏRBAYCAN dünyaya günəş kimi doğacaq", inşaAllah! Amin!

Buradakı bütün gözəl sözlər TƏK BIR O-na aiddir! Hər kim nəyinsə ona məxsus olduğuna iddialıdırsa bilsin ki özü də TƏK BİR O-nundur! (Bu barədə bax: hər kəs dialoqdan danışır)

Sui-zənn etmə, önyarğılı olma, bir də ...tələsərək əvvəlcədən hökm verm ə!

MƏNİ RUHU QƏDƏR SEVDİYİNİ İDDİA EDƏNİN SÖZLƏRİ:

NƏYİN VAR ÖZÜNƏ VERİB GEDİRƏM.
HƏR BİR ƏZABINI GÖRÜB GEDİRƏM.
SİNƏMİ ÖLÜMƏ GƏRİB GEDİRƏM.
MƏN SƏNİ ƏZƏLDƏN SEVMƏDİM, ƏLVİDA DÜNYA!

TƏK BİR O-nun vüsalı ilə alışıb yanan, heç nə bilmədiyini bilən, Qalib Sultanların xidmətçisi Alikram deyə görünən.

***2020***